Unikal məkan

# Ruhunu dəyişməyən qala şəhəri

**Tarix hər zaman xalqların yaranmasına və süqutuna şahidlik edib. O xalqlardan bəziləri öz dilini unudub, bəziləri yaradılış tarixini, bəziləri isə öz başına gələn hadisələri. Xalq o zaman dövlətqurma kamilliyinə çatır ki, bu sadalanan 3 komponentdən heç birini unutmur, vahid amal uğrunda birləşməyi bacarır. Azərbaycan xalqı yarandığı gündən öz tarixini, mədəniyyətini, dövlətçilik ənənələrini nəsildən-nəslə ötürüb, yaddaşlarda yaşadıb.**



2020-ci il noyabr ayının 8-də Ali Baş Komandanın: "Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq, biz səni dirçəldəcəyik! Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!", - deyərək xalqa müraciəti bir göz qırpımında qədim Bakını ayağa qaldırdı. Çox keçmədən 2021-ci ilin may ayında Cıdır düzü ənənəvi "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalı ilə 30 illik ayrılıqdan sonra pərəstişkarlarını qoynuna aldı. Avqust ayında isə Molla Pənah Vaqifin bərpa edilmiş məqbərəsi önünə dahi şairin doğum günündə söz və şeir aşiqləri Vaqif Poeziya Günlərinə toplaşdı.

Şuşa milli birliyimizin rəmzi kimi bizi qoynuna çağırdı, bir mayak kimi xalqımızı ətrafında cəmləşdirdi. Ali Baş Komandan İlham Əliyevin Cıdır düzündə alovlandırdığı Novruz bayramı tonqalı Oğuz elini həmrəyliyə səslədi. Milli birliyimiz, həmrəyliyimiz şanlı zəfərimizlə daha da möhkəmləndi, daha da gücləndi. Zəfər sevincini dadan, ordumuzun arxasında dağ kimi dayanan xalqımız yaxşı bilir ki, milli birliyimiz olan təqdirdə hər döyüşdən qalib çıxa bilərik. Azərbaycan əsgəri də xalqımızın dəstəyi, bundan yaranan döyüş əzmi və ruh yüksəkliyi ilə irəli atıldı.

Bir vaxt dağlarının başı duman olan Şuşa, indi azad səmasında üçrəngli bayrağımızın ahəngi ilə dolaşan şəhid ruhlarının cənnət guşəsidir. Cıdır düzü zəfər şənliklərinin qeyd olunduğu gözəl məkandır. Düşmən tapdağında ümidlə, intizarla nakam açmış boynubükük xarıbülbüllər artıq yeni növraqla torpağın altından baş qaldırırlar. Şuşa övladlarına qovuşan, onları ağuşuna alan, qürur hissi keçirən məğrur bir ananın fərəhlə döyünən ürəyi ilə çırpınır.

Şuşa qalası Vətən müharibəsi döyüşlərində əsgərlərimizə səngər oldu, Pənahəli xanın ruhu ilə oyanıb mənəvi gücə çevrildi, bir neçə əsr əvvəlki müdafiə missiyasını canlandıraraq əsgərlərimizi düşməndən qorudu. Bu gün Şuşa qalasının hər daşı xalqımızın döyüşkənlik ruhundan ilhamlanaraq bir-birinə söykənib, sarsılmaz olubdur. İsa bulağı həsrətindən daha qanlı gözyaşı axıtmır, sevinclə, fərəhlə zümzümə edir. Onun da şanlı zəfərimizə qoşduğu nəğmələr var. Azad Qarabağın hər qarış torpağı sanki dilə gəlib danışır.

Ali Baş Komandan, Prezident İlham Əliyevin Şuşa haqqında fikirləri və Şuşaya hər səfərində Qarabağın tacına qarşı müşahidə etdiyimiz münasibəti hamını təsirləndirir. Şuşaya ayaq basmağa ən çox haqqı olan Müzəffər Ali Baş Komandan sanki bu ulu yurdun hər qarışına sığal çəkir, Şuşanın işğal dönəmində yaşadığı acıları, aldığı yaraları unutdurmağa çalışır.

Ölkə Prezidenti İlham Əliyevin başçılığı altında müzəffər Azərbaycan Ordusunun əsgərləri tarixdə misli görünməmiş qəhrəmanlıq göstərərək qanları, canları bahasına uzun illər həsrətində olduğumuz Şuşanı bizə qaytardı. Bu qürurverici xəbərdən heç iki gün keçməmiş Ali Baş Komandan xalqımıza daha böyük bir müjdə verdi: - "Qarabağ tamamilə işğaldan azad olundu!" Biz ölkə Prezidenti İlham Əliyevin illərdir apardığı məqsədyönlü siyasəti, böyük iradəsi, şanlı ordumuzun şücaəti ilə, şəhidlərimizin qanı bahasına böyük bir tarixi qələbə qazandıq.

Tək Azərbaycanın deyil, türk dünyasının, islam dünyasının cazibə mərkəzi, şərq müdrikliyini yaşadan Şuşa dünyanın ən sadiq şəhəridir. Öz sahiblərinə sadiq qalan, bir qərinəyə yaxın müddət keçsə də, ruhunu dəyişmədən qoruyub saxlayan, doğmalarına qovuşduqdan sonra ruhunun donu açılan Şuşam indi daha da gözəlləşdirilir. Hər daşı, hər ağacı, hər yolu, hər cığırı müqəddəs Şuşamız, şükürlər olsun ki, sənə vəfa borcumuzu qaytara, sənə qovuşa bildik.

Əziz Şuşam, sənə qovuşmağın həsrəti də gözəldir. Canımızı fəda dediyimiz xan şəhərimiz, sən dönüşünlə ruhumuza güc verdin.

Bir daha şahidi olduq ki, Şuşa Qarabağın, Qarabağ isə Azərbaycanın döyünən ürəyidir.

***Aynur SƏFƏRLİ,***
***BDU-nun doktorantı***

Azərbaycan.- 2022.- 3 noyabr.- S.7.